*Dünyada autizm diqanozu qoyulan uşaqların sayı getdikcə artır. Bu kitabda olan məlumat diaqnozun müəyyən edilməsi istiqamətində atılan ilk addımdır. Lakin autizm anlayışına daha ciddi "autizm spekterli pozuntular" xəstəlikləri aiddir. Ona görə də həkim psixiator, psixoloq, korreksion pedaqoq və nitq terapevtinin ixtisaslaşdırılmış və fərdi yanaşması vacibdir.*

***Gülşən Ağayeva***
***Səhiyyə Nazirliyinin***
***Uşaq Psixo-nevroloji Mərkəzi***
***Həkim-pediatr, uşaq psixoloqu***

*Xroniki gedişli olmağına baxmayaraq, erkən müdaxilə və düzgün yanaşma ilə bu Autizmli şəxslərin cəmiyyətə inteqrasiyası mümkün ola bilər. Bunun üçün də öncəlikli olaraq, valideynlərin maariflənməsi və düzgün diaqnostika ciddi əhəmmiyyət kəsb edir. Bütün bunları nəzərə alaraq, Bu vəsaitin autizm haqqında maariflənmə üçün çox dəyərli olduğunu düşünürəm. Əziyyəti olan hər kəsə ən dərin hörmətlərimi təqdim edirəm.*

***Uzman Dr. İkram Rüstəmov***
***Psixiatr***

*Bir çox ölkələrin müxtəlif ixtisaslı insanlarının birgə səyi nəticəsində yaradılmış və tərcümə edilmiş bu sadə testin, autizmin erkən aşkar edilməsinə və korreksiya işinə cəlb edilməsinə faydalı olduğunu düşünürəm*

***Vazeh Abbasov***
***Psixiatr***
***"Çıraq" Psixolojı Araşdırmalar və Dəstək Mərkəzi***



# Autizm üzrə vəsait

İSİM
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Sosial Xidmətlər Təşəbbüsü

HANS
Help Autism Now Society

# Mündəricat

Səhifə 1 Mündəricat

Səhifə 2 Təşəkkürlər

Səhifə 3 CHAT Afişa

Səhifə 4–5 CHAT Autizm Təyinedici Alət

Səhifə 6-23 DAVRANIŞ SİMPTOMLARINA DAİR VİZUAL BƏLƏDÇİ

- Səhifə 7–8 Sosiallaşma Problemi
- Səhifə 9 Ünsiyyət Problemləri
- Səhifə 10-13 Qəribə/Təkrarlanan Davranışlar
- Səhifə 14–15 Motorika
- Səhifə 16 Sensor Yüklənmələr
- Səhifə 17–19 Sensor Problemlər
- Səhifə 20 Özünə Xətəryetirmə
- Səhifə 21–23 Təhlükəsizlik Məsələləri

Page 24 Yanaşı Xəslətliklər: Mədə-Bağırsaq Sisteminin Pozulması

Page 25 Yanaşı Xəslətliklər: Yuxunun Pozulması/Ağrı Həddi/Qıcolmalar

Page 26 Autizmin Ailəyə Təsiri

Page 27 Erkən Korreksiya Təliminin Rolu

Page 29–33 Autizmli Uşaq üçün Poliklinika Ziyarətinin Optimallaşdırılması

Page 34-36 Resurslar

Help Autism Now Society
www.helpautismnow.com

«Autizm üzrə vəsait» Pediatrlar və bu sahədə çalışanlar üçün mütəxəssislər tərəfindən hazırlanmışdır.

Bioloji göstəricinin olmadığı təqdirdə yalnız uşağın davranışlarını müşahidə etmək yolu ilə və valideynlərdən əsaslı şəkildə alınmış məlumat vasitəsilə autizm diaqnozu qoyula bilər.

Bu vəsait HANS (Help Autism Now Society) icraçı direktoru Linda Li tərəfindən təhsil və tibb sahələrində çalışan peşəkar ekspertlərin işləri əsasında tərtib olunmuşdur. Siz orijinal nəşrlərlə aşağıdakı linklər vasitəsilə tanış ola bilərsiniz:
**http://www.helpautismnow.com/ph_slideshow_English.html**

**©2014 Bütün hüquqlar qorunur.**

Vəsait "Çıraq" Psixoloji Araşdırmalar və Dəstək Mərkəzinin mütəxəssisləri tərəfindən tərcümə və adaptasiya olunub.

*Kitabça "Sosial Xidmətlər Təşəbbüsü" İctimai Birliyinin təqdimatı ilə Azərbyacan Respublikası Səhiyyə Nazirliyinin maliyyə vəsaiti hesabına çap olunmuşdur.*

## Təşəkkürlər

HANS aşağıdakı şəxslərə bu kitabçanın hazırlanmasında iştirakına və verdikləri böyük töhfəyə görə dərin təşəkkürünü bildirir.

**Dr. Simon Baron-Cohen**, CHAT təyinetmə alətinin yaradıcısı: İnkişaf Psixopotologiyası Professoru, Autizm Araşdırma Mərkəzinin Direktoru, Cambridge Universiteti, İngiltərə.

**Julie Bingham, PhD:** Uşaq Kliniki Psixoloqu, Salem, Oregon

**Richard Bingham, MD:** Uşaq Psixiatrı, Salem Oregon

**Sarojini Budden, MD:** Uşaq İnkişaf Mütəxəssisi, Uşaq İnkişaf və Reabilitasiyanın Direktoru, Legacy Emmanuel, Portland, Oregon.

**Sara Cuthill, MD:** Uşaq İnkişaf Mütəxəssisi, Kaiser Permanente, Portland, Oregon.

**Mike Marlowe, MD:** Pediatr, Kaiser Permanente Salem, Oregon

**Mary Lynn O' Brien, MD:** Uşaq İnkişaf Mütəxəssisi, Kaiser Permanente, Portland, Oregon.

**David Willis, MD:** Davranış və İnkişaf Pediatrı, Northwest Early Uşaq İnstitutu, Portland, Oregon

**Registered 501c3 non-profit**
**www.helpautismnow.com**

# 18 aylığında Sizin övladınız



**1. Nə isə istəyəndə Sizə baxır və istədiyi əşyaya barmağı ilə göstərirmi?**



**2. Sizin göstərdiyiniz yerə baxırmı?**



**3. Əşyalarla xəyali oyunlar oynayırmı?**

Help Autism Now Society

Əgər "XEYR" cavabını vermisinizsə, ola bilər ki, sizin uşağınızda AUTİZM var. Xahiş edirik ki, öz müalicə həkiminizə məhz elə bu gün müraciət edəsiniz!

*CHAT əsasında*

# CHAT azyaşlılarda autizmi təyin edirik)

**2 səhifədən birincisi (uşaq 18 aylıq ikən həkimə baş çəkərkən doldurulur)**

## A Bölməsi: valideynlər doldurur

| | | |
|---|---|---|
| 1. Uşaq sizin dizləriniz üstündə yellənməyi, hoppanmağı, oynamağı xoşlayırmı? | Bəli | Xeyr |
| 2. Başqa uşaqlar onda maraq yaradırmı? | Bəli | Xeyr |
| 3.Uşağınız harasa, məsələn, nərdivana dırmaşmağı xoşlayırmı? | Bəli | Xeyr |
| 4. Uşağınız "ku-ku" və ya "gizlənqaç" kimi oyunlar oynamağı sevirmi? | Bəli | Xeyr |
| **5. Xəyali oyunlar oynayırmı: deyək ki, oyuncaq çaynikdə "çay" dəmləyirmi, "çay"ı fincanlara "süzürmü" və ya bunun kimi oyunlar qururmu?** | Bəli | Xeyr |
| 6. Uşağınız nə isə İSTƏDİKDƏ həmin əşyanı barmağı ilə göstərirmi? | | |
| **7. Ona MARAQLI olan şeyləri barmağı ilə göstərirmi?** | Bəli | Xeyr |
| 8. Uşağınız kiçik ölçülü oyuncaqlarla (məsələn, maşın, kubşəkilli oyuncaqlar) təyinata uyğun oynayırmı (onları ağzına salmaq, özünə sıxmaq və tullamaq hesaba alınmır.)? | Bəli | Xeyr |
| 9. Uşağınız sizə GÖSTƏRMƏKdən ötrü sizin üçün nələrsə gətirirmi? | Bəli | Xeyr |

## B Bölməsi: həkim, yaxud tibb işçisi doldurur

| | | |
|---|---|---|
| 1. Qəbul zamanı uşaq sizin gözlərinizə baxırdımı? | Bəli | Xeyr |
| 2. Uşağın diqqətini özünüzə çəkin, sonra isə ona otağın digər tərəfindəki maraqlı bir əşyanı göstərin və deyin: "Bax! Bu (oyuncağın adı)!" Bu zaman uşağın üz ifadəsini müşahidə edin. O sizin göstərdiyiniz əşyaya baxırmı? | Bəli | Xeyr |
| 3. Uşağın diqqətini özünüzə çəkin, sonra isə ona oyuncaq fincan və çaydan verin və soruşun: "Mənim üçün bir fincan çay süzərsən?" Uşaq sizin üçün "guya ki" çay süzürmü, onu içirmi? | Bəli | Xeyr |
| 4. Uşaqdan soruşun: "İşıq hanı?", yaxud deyin: "Mənə işığı göstər". Uşaq şəhadət barmağı ilə işığı GÖSTƏRİRMİ? | Bəli | Xeyr |
| 5. Uşaq kubşəkilli oyuncaqlardan qala düzəldə bilirmi? (Əgər düzəldirsə, o zaman neçəsindən___________ ) | Bəli | Xeyr |

**<u>B2:</u> Bu bənddə "Bəli" cavabını qeyd edərkən əmin olun ki, uşaq, sadəcə, sizin əlini izləməyib, məhz göstərdiyiniz əşyaya baxıb.**
**<u>B3:</u> Əgər uşağın bir başqa oyun zamanı - xəyali oyunlara dair nümunə gətirə biləcəksinizsə, o zaman bu bənddə "Bəli" cavabını qeyd edin.**
**<u>B4:</u> Əgər uşaq "işıq" - sözünü bilmirsə, onda həmin şeyi: "Ayı-hardadır?" sualı ilə əvəz edin və ya əl altında olan başqa bir əşya ilə bağlı təkrar edin. Bu bənddə "Bəli" cavabını qeyd etmək üçün uşaq ya siz əşyanı göstərən vaxt, ya da bir an sonra sizin üzünüzə baxmalıdır.**

(Məsləhətlər üçün növbəti səhifəyə bax)

**CHAT, əsas bəndlər**

A bölməsi

A 5: “Guya ki” oyunu oynayır

A 7: İşarə etmək jestinə malikdir

B bölməsi

B2: Əşyanı izləyir

B3: Xəyali oyunlar oynayır

B4: Barmağı ilə göstərir

**CHAT, əsas olmayan bəndlər**

A bölməsi

A1: Səsli və hərəkətli oyunlar

A2: Sosial maraq (qatılma)

A3: Motorikanın inkişafı

A4: Sosial oyun

A6: İşarə etmək jesti

A8: Funksional oyun

A9: Göstərir

B bölməsi

B1: Vizual əlaqə

B5: Kubşəkilli oyuncaqlardan qala

**Riskin hesablanması**

| | |
|---|---|
| Autizmin yüksək risk qrupu: | A5, A7, B2, B3, B4 bəndlərində “XEYR” cavabı |
| Autizmin orta risk qrupu: | A7, B4 bəndlərində “XEYR” cavabı (yüksək risk qrupundan olan bəndlər olmadıqda) |
| Autizmin kiçik risk qrupu: | birinci və ikinci qruplara daxil olan bəndlər istisna olmaqla, qalanları |

## Məsləhət və tövsiyələr:

**Yüksək risk qrupu:** **uşaq psixiatrı və ya tibbi pedoqoji komissiyaya müraciət etmək məsləhət görün.**

**Autizmin orta risk qrupu:** **güclü şübhələr varsa: yuxarıda qeyd olunduğu kimi hərəkət edin.**
**Zəif şübhələr varsa: testi bir ay sonra təkrar edin.**

**Aşağı risk qrupu:** **hətta bir “XEYR” cavabı olsa belə, testi bir ay sonra təkrar edin**

HANS Help Autism Now Society

www.helpautismnow.com

# Autizmin davranış simptomları



**Sosial**

**Kommunikativ**

**Qəribə və ya ritual davranış**

**Motorika**



**Sensor yüklənmələr**

**Hisslər**

**Özünə xətəryetirmə**

**Təhlükəsizlik**

Help Autism Now Society
www.helpautismnow.com

# Autizmin davranış simptomları

## SOSİALLAŞMA PROBLEMİ

*Başqa uşaqların oyunlarına maraq göstərməyə bilər*





*Bacı-qardaşına münasibətdə qəddarlıq nümayiş etdirə bilər*

*Çarpayıda tək qaldıqda anasını çağırmaq əvəzinə, qışqırır*





*Valideynlərinin işə getməsinə və qayıtmasına fikir vermir*

HANS Help Autism Now Society

www.helpautismnow.com

# Autizm davranış simptomları

## SOSİALLAŞMA PROBLEMİ

*Qarşılıqlı əlaqə istəyən oyunlarda, məsələn, "gizlənqaç"da iştirak etməyə bilər*






*Valideynlər onu qucaqda tutduqda, qucaqladıqda, yaxud öpdükdə buna hər yolla mane olmağa çalışır*





*Yatağında uzandığı vaxt kimsə ona əllərini uzadıb onu qucağa almaq istədikdə o da qarşılıqlı olaraq əllərini uzatmır*

# Autizm davranış simptomları

## KOMMUNİKATİV (ÜNSİYYƏT) PROBLEMLƏR

*Autizmdən əziyyət çəkən uşaqlar ətraf şəraiti hiss etmir və vizual əlaqə yaratmaqda çətinlik çəkirlər. Bundan irəli gələrək elə görünə bilər ki, belə uşaqların ünsiyyət qurmağa tamamilə marağı yoxdur.*
*Onlar nəyəsə ehtiyac duyduqda daha çox "əl yönəltməsi"ndən istifadə edirlər: uşaq valideynin əlini özünün ehtiyac duyduğu əşyanın üzərinə qoyur və bu yolla valideyn və ya böyükdən öz istəyinə çatmaq üçün ALƏT kimi istifadə edir. Adi uşaqlar öz ehtiyacları barədə verbal yolla (uşaq dili ilə, sözlərlə) və ya qeyri-verbal yolla (əşyanı göstərməklə) xəbər verirlər*



*Ətraf şəraiti hiss etmir*



*Vizual əlaqədən yayınır*



*Böyüklərin əlindən istifadə edir, onu yönəldir*

HANS
www.helpautismnow.com

# Autizm davranış simptomları

## QƏRİBƏ/TƏKRARLANAN DAVRANIŞLAR



*Əllərini yellətmə,
bir birinə çırpma*





*Ventilyatoru
diqqətlə izləmək*

*Durduğu yerdə
öz ətrafında
dönmə*



*Xətt boyunca düzmə (məs.,
oyuncaq maşınları)*



HANS Help Autism Now Society

www.helpautismnow.com

# Autizm davranış simptomları

## QƏRİBƏ/TƏKRARLANAN DAVRANIŞLAR



*Oyuncaqlara fikir verməyə bilər, bunun əvəzində isə müxtəlif obyektlərə, məs., isidiciyə maraq göstərir*

*Günəş işığının şüalarını tutur*





*Ümumilikdə, oyuncağın özü ilə maraqlanmasa da, onun hər hansı detalı diqqətini çəkə bilər, məsələn, oyuncaq maşının fırlanan təkərləri*

# Autizm davranış simptomları

## QƏRİBƏ/TƏKRARLANAN DAVRANIŞLAR



*Özü-özünü yırğalamaq*



*İşığı yandırıb-söndürməyə olan sonsuz maraq*



*Yeyilə bilməyəcək şeyləri yemək, məs., paltarı , pərdəni, döşəyi*



*Barmaqları ilə gözlərinin qabağında çırtma çalmaq*

HANS Help Autism Now Society
www.helpautismnow.com

# Autizm davranış simptomları

## QƏRİBƏ/TƏKRARLANAN DAVRANIŞLAR

*Müxtəlif vasitələrlə onun bədəninin sıxılmasına can atır*



*İfrazatını hər tərəfə yaxır*



*Bədənini güclü dərəcədə qıcıqlandırmağın yollarını tapır*



Help Autism Now Society
www.helpautismnow.com

# Autizm davranış simptomları

## MOTORİKA

*Autizmdən əziyyət çəkən uşaqlarda motorikanın pozulması müşahidə oluna bilər Bəzi uşaqlarda müəyyən bir sahədə qeyri-adi bacarıqların ortaya çıxması, ancaq bu zaman başqa bir sahədə tamamilə bacarıqsız olması üzə çıxa bilər*



*Xırda motorika problemləri*



*Pis koordinasiya*



*Ayaq barmaqlarının ucunda yerimə*



*Fəza qavramının defisiti*

# Autizm davranış simptomları

## MOTORİKA

*Hətta adi motorika vərdişlərinə malik olan uşaqlar da, bəzən üçtəkərli velosiped və ya maşın-arabanı və s. güclə idarə edə bilir.*



*Yöndəmsizlik,*



*yaxud*

*mükəmməl tarazlıq*



*Ağız suyunu axıdır*



*Üçtəkərli velosiped və ya uşaq maşınını idarə edə bilmir*

# Autizm davranış simptomları

## SENSOR YÜKLƏNMƏLƏR



*Autizmdən əziyyət çəkən uşaq cürbəcür səslər, küy, əşyaların səthi, həmçinin yeni təəssürat və yeni şəraitə qarşı həssas ola bilər. Sensor yüklənmələrin sayı nə qədər çox olarsa, davranışın təhrif olunması ehtimalı da bir o qədər yüksəkdir.*

Help Autism Now Society
www.helpautismnow.com

# Autizm davranış simptomları

## SENSOR PROBLEMLƏR

*Saçının qırxılmasına imkan vermir*





Təhlükəsizlik kəməri ilə bağlanmış halda oturmağı sevmir

*Yeni təəssüratları, məsələn, ad günləri, yaxud bayramlardan olan təəssüratları (şarlar, şamlar, fişəng və s.) sevmir*





*Su prosedurlarından qətiyyətlə imtina edir*

Help Autism Now Society
www.helpautismnow.com

# Autizm davranış simptomları

## SENSOR PROBLEMLƏR



*Adi ev şəraitində mövcud olan qoxulardan ürəkbulanma hiss edir*



*Musiqi səsinə güclə tab gətirir*



*Əşyaları üzünə çox yaxın tutaraq fırladır*



*Bəzi hallarda kar kimi görünə bilər, çünki yüksək səslərdən diksinmir, amma bununla belə, digər hallarda eşitmənin normal olduğu hiss oluna bilər*

HANS Help Autism Now Society

www.helpautismnow.com

# Autizm davranış simptomları

## SENSOR PROBLEMLƏR



*Qış fəslində isti paltarları həvəssiz geyinir*

*Paltar dəyişməyi xoşlamır*





*Öz paltarlarını cıra, onların üzərindəki etiket və ya sapları qopara bilər*

*Yay fəslində inadla tələb edə bilər ki, ona qış paltarlarını geyindirsinlər*



Help Autism Now Society
www.helpautismnow.com

# Autizm davranış simptomları

## ÖZÜNƏ XƏTƏRYETİRMƏ



*Başını çırpır*



*Özünü dişləyir, bu zaman ağrı əlamətləri göstərmir*



*Öz dərisini qaşıyıb cırmaqlayır*



*Öz saçını yolur*

Help Autism Now Society
www.helpautismnow.com

# Autizm davranış simptomları

## TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ



*Təhlükə anlayışı yoxdur*





Help Autism Now Society

www.helpautismnow.com

# Autizm davranış simptomları

## TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ





*Əzilə və ya yaralana biləcəyi situasiyanı hiss edə bilmir*



# Autizm davranış simptomları

## TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ





*Yüksəklik qorxusu yoxdur*



Help Autism Now Society

www.helpautismnow.com

# YANAŞI XƏSTƏLİKLƏR:
## MƏDƏ-BAĞIRSAQ SİSTEMİNİN POZULMASI

*Harvard Universiteti və Boston İctimai Mərkəzi xəstəxanasında fəaliyyət göstərən qastroenteroloq həkim Tim Bui autizmdən əziyyət çəkən 1000-dən çox uşağın endoskopiyasını etmişdir. O, 400 uşaqda qastroenteroloji problemləri aşkar etmişdir, belə problemlər adi uşaqlardan fərqli olaraq, autizmdən əziyyət çəkən uşaqlarda daha çox rast gəlinir.*

Aşkar olunmuşdur:

- 55% laktaza çatışmazlığı.
- 10% onikibarmaq bağırsağın iltihabı,
- 12% qastrit,
- *12% yoğun bağırsağın iltihabı,*
- 20% ezofagit (qida borusunun iltihabı)

*Ehtiyac olduqda qastroenteroloqa müraciət etməyi tövsiyyə edin*



*İshal*



*Nəcisdə həzm olunmamış yemək*



*Bilərəkdən yemək məhdudlaşdırma*
*Hədsiz qidalanma*



*Qəbizlik*

www.helpautismnow.com

# YUXUNUN POZULMASI/ AĞRI HƏDDI/ QICOLMALAR



*Yuxunun pozulması:*

*Uşaqlar bir neçə gün ərzində ayıq qala və bu zaman qətiyyən yatmaq ehtiyacı duymaya bilərlər. Gecəni gündüzdən ayırmaya bilərlər. Güclə yuxuya gedib tez-tez oyana bilərlər. Çox qısa zaman ərzində, 1-2 saat yata bilərlər. Bunun nəticəsi olaraq valideynlər yuxusuz qalır.*



*Ağrı həddinin dəyişməsi:*
*aşağı/yox dərəcəsində ağrı həddi, yaxud yüksək ağrı həddi*



*Qıcolmalar:*
*qıcolmaları müşayiət edən patologiya yaş artdıqca çoxalır. Etiologiyası naməlumdur.*

# AUTİZMİN AİLƏYƏ TƏSİRİ




***Autizmli uşağı olan ailə üçün adi həyat tərzi sürmək mümkün olmaya bilər.***

*Valideynlər və qardaşlar/bacıların gərginliyi çox yüksək ola bilər. Yaxşı olardı ki, onlar yerli psixoloji dəstək qrupuna yönəldilsinlər.*



Help Autism Now Society
www.helpautismnow.com

# ERKƏN KORREKSİYA TƏLİMİNİN ROLU



*Əgər uşağın inkişafında hər hansı ləngimələrin olduğunu hiss edirsinizsə, ailəni testləşdirmə üçün erkən müdaxilə üzrə mütəxəssisə yönəldin (uşaq psixiatri). Uşağın xüsusiyyətlərindən asılı olaraq erkən müdaxilə üçün psixoloq, loqoped, və/yaxud fizioterapevt tövsiyyə edilə bilər*



*Araşdırmalar göstərir ki, erkən intensiv korreksiya təlimi uşaq və ailə üçün daha yaxşı nəticələnən inkişafa səbəb olur. Təməl strategiyanın məqsədi uşağa ətrafda baş verənlərə diqqət yetirməyi, ətraf mühitdə dəyişikləri görməyi, təqlidi öyrətməyi və bunun nəticəsi olaraq, ünsiyyət vərdişləri və s. inkişaf etdirməkdir.*

# AUTİZMLİ UŞAQ ÜÇÜN POLİKLİNİKA ZİYARƏTİNİN OPTİMALLAŞDIRILMASI

*Bir həkim olaraq Siz, ilk növbədə, xəstəliyi aşkar etmək təlimini almısınız.*
*Autizmdən əziyyət çəkən uşaqlar nadir hallarda xəstə görünüşə sahib olurlar; onlar normal görünə və pediatrik cəhətdən öz bioloji yaşına uyğun qiymətləndirilə bilər*



*Onlar özünü, sadəcə, elə apara bilərlər ki, sanki onların üzərində sərt valideyn nəzarəti əksikdir.*
*Onlar çox vaxt dəyişikliklərə etiraz edirlər, məsələn, yeni situasiyalara, yeni təəssüratlara, yeni adamlara.*



## TELEFON VASİTƏSILƏ VALİDEYNLƏRLƏ ƏTRAFLI MÜZAKİRƏ APARIN



*Bu sizə daha çox aşağıdakılarda kömək edəcək:*

1. *Fikirinizi söhbət zamanı iştirak edən uşağa yayındırmadan, valideynlərin öz dilindən problem haqqında hərtərəfli fikir almağa*
2. *Həkimə ziyarəti uşaq üçün maksimum şəkildə yüngülləşdirməklə bağlı onların təkliflərini dinləməyə*
3. *Valideynlərdən müayinə zamanı uşağa kömək edə biləcək motivasiyanı (məs. şirniyyat) özləri ilə gətirmələrini xahiş etməyə*
4. *Qan analizi alınacağı təqdirdə valideynlərə həkimə gəlməzdən öncə keyidici məlhəmdən istifadə etməyi tövsiyyə etməyə*
5. *Həkim ziyarəti barəsində tibbi sosial hekayələri* **helpautismnow.com** *saytında dərc olunmuş məqalələrdən, məsələn, "Həkimə gedirik" və ya "Qan analizi veririk" və s. oxumaqla uşağı həkimlə görüşə hazırlamağı valideynlərə tövsiyyə etməyə*

## VALİDEYNLƏRİN FİKİRLƏRİNƏ DİQQƏT



*Valideynləri öz uşaqlarını "oxumaq" üzrə ekspert adlandırmaq olar.*

*Bütün fiziki simptomları, mümkün qədər, adi uşağınkı kimi şərh edin (imkan verməyin ki, autizm sizin düşüncələrinizi bədbinləşdirsin).*

# AUTİZMLİ UŞAQ ÜÇÜN POLİKLİNİKA ZİYARƏTİNİN OPTİMALLAŞDIRILMASI

## KABİNETİNİZİ MÜAYİNƏ ÜÇÜN HAZIR VƏZİYYƏTƏ GƏTİRİN



*Tibb bacısı, yaxud assistent valideynlərdən otağı necə hazırlamaları ilə bağlı əvvəlcədən məsləhət ala bilərlər*

*Hazırlıq aşağıdakıları ehtiva edə bilər:*
*Parlaq olmayan sakit otaq.*
*Pəncərəsiz, parlaq işıqlandırmasız, musiqisiz otaq*
*Lazım gəldiyi təqdirdə, uşağın tullaya və silah kimi istifadə edə biləcəyi bütün əşyaları əl altından götürün*

## GÖZLƏMƏ VAXTINI MÜMKÜN QƏDƏR AZALDIN



*Bunu nəzərə alın:*
*Uşağı qəbulunuza birinci yazın (qəbula 10 dəqiqə tez gələn uşaq qalan pasieyntləri görməyəcək)*
*Mümkün üstünlüklər riski minimallaşdırır:*

1. *Uşağın davranışındakı əskiklikləri*
2. *Digər pasiyentlərin qəbul qrafikinin pozulmasını*
3. *Valideynlərin narahat vəziyyətə düşməsini*
4. *Gözləmə otağına xətər yetirilməsini*

*Mümkün olduğu halda, uşağı qəbula telefon vasitəsilə əvvəlcədən yazın.*

HANS Help Autism Now Society
www.helpautismnow.com

## Hər şey siz düşündüyünüzdən daha fərqli ola bilər



*Autizmli uşaqların qayğıdan məhrum və ya valideynlərin pis rəftarının qurbanları olduğu təəssüratını yaratmalarına baxmayaraq, aşağıdakılara diqqət yetirin:*

*Özünə xətər yetirməyə yönəlmiş hərəkətlər: dişləmə, başını çırpma, cırmaqlama və s.*

*Ağrı hissinin məhdud və ya yox dərəcəsində olması*

*Uşaqda təhlükə hissinin və ya yaralana bilməsi hissinin olmaması*

*Sensor xüsusiyyətli ciddi problemlər çimmək və ya paltar dəyişməklə bağlı fəaliyyəti, əməli olaraq, mümkünsüz edir*

## GÖZLƏNİLMƏZLİKLƏRƏ HAZIR OLUN!

***Öz təhlükəsizliyiniz naminə ayıq-sayıq olun.***

*Autizmdən əziyyət çəkən uşaqlar bəzən sizi kömək deyil, təhlükə kimi qəbul edə bilərlər. Onlar özünü sakit apara, lakin qəflətən hərəkətə gələ və aşağıdakıları edə bilərlər:*

*Başları ilə zərbə vura,dişləyə, vura, təpik ata,tüpürə, saçlarını yola,qaçmağa cəhd edə və s.*

*Uşağın "şəxsi məkanını" pozmamağa çalışın (onlarda bu, adi uşaqlarınkından daha böyük ola bilər)*



Help
Autism
Now
Society
www.helpautismnow.com

## MƏHDUD ANLAMA VƏ NİTQ

*Bəziləri cizgi filmlərini əzbərdən danışa bilsələr də, qəhrəmanların adlarını çəkməyi və ya cizgi filmini izləyərkən necə hislər keçirdiklərini danışmağı bacarmırlar. Səs informasiyasının analizi zamanı çətinlik çəkə bilərlər.*



## AUTİZİMİN SİZİN AİLƏYƏ OLAN TƏSİRİNİ ANALİZ EDİN

*Ehtiyac yarandıqda, autizmli uşaqları olan ailələrə psixoloji dəstək verən xüsusi təşkilatlar, yaxud digər psixoloji xidmətlərə müraciət edin.*



Help Autism Now Society
www.helpautismnow.com

1. Memoria Center. Uşaq Reabilitasiya Mərkəzi
Ceyhunbəy  Hacıbəyli 181.
Əlaqə telefonu: 496 97 62
http://memoriacenter.com/
https://www.facebook.com/memoriacenter?fref=ts

2. Peşəkar Psixologiya Mərkəzi
Ünvan: Yasamal r-nu, T.Şahbazi Küç. 110,
Dövlət Statistika komitəsinin arxası KATV 1 ilə üzbəüz
Əlaqə telefonu: 012 538 74 31, 050 492 67 25, 055 350 22 34

3. Mədinə Tibb Mərkəzi
Ünvan: Azadlıq pros. Binəqədi şosesi 10
Əlaqə telefonu: 012 412 59 19/29; 050 286 11 03
E-mail: medine-sa@mail.ru
Website: www.pediatrics.az

4. Müasir Psixologiya Mərkəzi
Narimnov r-nu, Əhməd Rəcəbli küç. 19/65,
MZ Plaza 4-cü mərtəbə, 55 otaq( "Dogtaş" mebel evinin yanı)
Əlaqə telefonu: 012 408 97 16; 050 367 12 38; 070 330 07 18
www.mpm.az

5. Sosial Xidmətlər Təşəbbüsü İctimai Birliyi
Bakı, Afiyəddin Cəlilov 26.
Əlaqə telefonu: 012 489 51 83
E-mail: office@ssi.org.az
website:  www.ssi.org.az
https://www.facebook.com/SocialServicesInitiative?fref=ts

6. "Autist Uşaqların Reabilitasiyasına Kömək" İctimai Birliyi
Bakı, N.Nərminanov r-n, Şamil Mustafayev küç. 27
Tel: 012 566 75 67, 055 742 00 75

7. "Oriqami" Uşaq Reabilitasiya Mərkəzi
AZ1133,Bakı, Yeni Günəşli, Suraxanı, "D"yaşayış massivi
Əlaqə telefonu: (012) 478 29 21/22

8. Müşviq Adına Əlil Uşaqlara Yardım  İctiami Birliyi
Ünvan: Qaradağ rayonu, Sahil qəsəbəsi, dostluq 3
Əlaqə telefonu:  012 446 58 36; 050 667 18 82
E-mail: mushfig97@mail.ru

9. Sumqayıt Uşaq İnkişaf Mərkəzi
Ünvan: Sumqayıt şəh, məh. 14, ev 19A, mən.7
Əlaqə telefonu: 055 661 96 42
E-mail: d_qahramanova@mail.ru

10. Azərbaycana BirgəYardım–UAFA
Bakı, H.Cavid prospekti, 520-ci məhəllə, ev 2
Əlaqə telefonu: (+994 12) 496 70 35; 497 25 19; Mobil: +994 55/50 316 8448
E-mail: office@uafa.az
Website: www.uafa.az

## AUTIZM MÖVZUSUNDA INTERNET ŞƏBƏKƏSINDƏ OLAN BƏZI RESURSLAR

**American Academy of Pediatrics**
www.aap.org/healthtopics/autism.cfm

**Arc of the United States**
www.thearc.org

**Autism and PDD Support Network**
www.autism-pdd.net/resources-by-state.html

**AutismInfo.com**
www.autisminfo.com

**AutismLink ListServ**
http://lists.autismlink.com/lists/

**AutisticLiving.com**
www.autisticliving.com/

**Autism Research Center, Cambridge University, England**
www.autismresearchcenter.com

**Autism Research Institute**
www.autism.com

**Autism Research Unit, University of Sunderland, UK**
http://osiris.sunderland.ac.uk/autism/aru.htm.

**Autism Society of America**
www.autism-society.org

**Autism Society Canada**
www.autismsocietycanada.ca

**Autism Speaks**

www.autismspeaks.org

**Autismweb.com**

www.autismweb.com/

**CDC Autism Information Center**

www.cdc.gov/ncbddd/autism/index.htm

**Autism Key**

www.autismkey.com/, www.autismkey.com/autism_directory.htm

**Autism Today**

www.autismtoday.com

## Kitablar


1. ÇetinÖzbey: Otizmve Otistik Çocukların Eğitimi
2. Lorna Wing: Otizmin el rehberi
3. Pınar Küçükaras: Kelimelerin Ötesinde Bir Otizm Hikayesi
4. BarışKorkmaz: Yağmur Çocuklar- Otizm Nedir?
5. Temple Grandin: ResimlerleDüşünmek
6. Ирина Мамайчук: Помощь психолога детям с аутизмом
7. Роберт Шрамм: «Детский аутизм и АВА. Терапия, основанная на методах Прикладного Анализа Поведения»
8. Тео Питерс: Аутизм. От теоретического понимания к педагогическому воздействию
9. Екатерина Карвасарская: Осознанный аутизм, или Мне не хватает свободы... Книга для тех, чья жизнь связана с аутичными детьми
10. Ловаас Ивар «книга Я» http://www.childneurologyinfo.com/education-text-The_Me_Book2.php
11. Янушко Е. «Игры с аутичным ребѐнком» http://www.e-reading.org.ua/book.php?book=103887
12. Книги по логопедии и дефектологии: http://pedlib.ru/
13. Аршатская О. «О психологической помощи детям … при … синдроме детского аутизма» http://pedlib.ru/Books/4/0448/4_0448-1.shtml
14. Информационный портал РИА-новости «Диагноз которого нет»: http://www.ria.ru/trend/autism_02042012/
15. http://www.childneurologyinfo.com/main.php

## Korreksiya metodikaları və təlim kursları:

TEACCH — *Лечение и обучение детей, страдающих аутизмом и нарушениями общения*: http://vseodetishkax.ru/osobye-deti/13-autizm-detskij-autizm-/20-autizm-korrekczionnye-podxody
ABA-терапия: http://autism-aba.blogspot.com/2011/08/chto-takoe-aba-terapija.html

## ABA kursları:

http://www.aba-kurs.com/
http://www.behavioranalysiseducation.com/

## Video:

фильм "Другие дети": http://youtu.be/Ol-cXzDNKWI
Канал «ABA по-русски»:
http://www.youtube.com/user/UpuHo4ka?feature=watch

Kitab Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011- ci il tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının 2.8.6 və 2.8.7. bəndlərinə əsasən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi və “Sosial Xidmətlər Təşəbbüsü” təşkilatı tərəfindən hazırlanmış və çap edilmişdir.